BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2006

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİ VƏ MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ

**H.H.ƏLİYEV**
*AMEA A.A.Bakıxanov adına Azərbaycan Tarix İnstitutu*

Ötən illər və əsrlər çox qədim və zəngin tarixə malik olan Azərbaycanın da siyasi həyatında silinməz izlər qoymuşdur.

XX əsrin 90-cı illərində Azərbaycanın müstəqilliyinin bərpa edilməsi milli tariximizin çox mühüm hadisəsi olmuşdur. Bu hadisə Azərbaycan tarixində yeni mərhələnin başlanğıcını qoymuşdur. Mədəniyyət həmişə dövlətin və cəmiyyətin diqqət mərkəzində olmuşdur. Ona görə də, bu sahədə həyata keçirilən tədbirlər heç vaxt hədər getmir. Çünki hər bir milli mədəniyyət hadisəsi həm də Azərbaycanın müstəqilliyinin təntənəsidir. Xalqları və millətləri bir-birinə daha çox yaxınlaşdıran, arada isti münasibətlər yaradan mənəvi dəyərlərdir.

Ölkəmiz öz müstəqilliyini əldə etdikdən sonra ötən qısa bir dövr ərzində – yəni 15 ildə siyasi, iqtisadi-sosial və digər sahələrlə yanaşı, mədəniyyət sahəsində də bir sıra uğurlar əldə etmişdir. Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrlə yeni mədəni əlaqələr qurulmağa başlanmışdır. Təkcə bir faktı göstərmək kifayətdir ki, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Mədəni Əməkdaşlıq Şurasının iclaslarında 2005-ci ilə kimi üzv dövlətlər arasında mədəni əlaqələri yaxşılaşdırmaq məqsədi ilə 14 məsələ müzakirə olunmuşdur. Avropada, Asiyada, türk dünyasında mədəniyyət sahəsində gedən proseslərə diqqət yetirilmiş, milli-mədəni dəyərləri qoruyub saxlamaqla dünya mədəniyyətinə inteqrasiya olunması məsələsinə xüsusi önəm verilmişdir.

Milli liderimiz Heydər Əliyev 2003-cü il fevral ayının 4-də MDB üzvü olan ölkələrin Mədəni Əməkdaşlıq Şurasının Bakı şəhərində keçirilmiş 18-ci iclasının iştirakçılarını qəbul edərkən demişdir: «İndi MDB-də müvafiq idarələrin müxtəlif təşkilatları çoxdur. Amma mən hesab edirəm ki, onların arasında mədəniyyət daha mühüm rol oynayır. Yeri gəlmişkən deyim ki, bu təkcə mənim fikrim deyildir. Bu bizim MDB ölkələri dövlət başçılarının görüşlərində həmişə səslənən ümumi fikirdir... MDB dövlət başçılarının, demək olar ki, hamısı belə bir fikirdədir ki, Birlik ölkələrinin arasında münasibətlərin daha da inkişafının, iqtisadi əməkdaşlığının genişləndirməsinin təmin olunmasında mədəniyyət sahəsi çox böyük rol oynayır».

Mədəni Əməkdaşlıq Şurasının iclasından sonra Azərbaycan Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə fevralın 5-də daha bir tədbir keçirilmiş – türkdilli ölkələrin, o cümlədən 6 müstəqil dövlətin və Rusiya Federasiyasının subyekti olan 6 türkdilli ölkənin mədəniyyət nazirlərinin iştirakı ilə TÜRKSOY yaradılmışdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, hazırda türkdilli xalqların sayı 200 milyondan çoxdur.

Mədəni Əməkdaşlıq Şurasının iclasında Şuranın iş planı, Birlik ölkələrinin mədəni əməkdaşlığını dəstəkləmə fondu, Böyük Vətən müharibəsində qələbənin 60 illiyinə həsr olunmuş tədbirlər proqramı və digər məsələlər müzakirə olunmuşdur.

Müstəqil Dövlətlər Birliyi üzv dövlətləri arasında iqtisadi əlaqələrin inkişafı elm, təhsil və digər sahələrlə yanaşı mədəniyyət sahəsində də öz əksini tapmışdır. Sovetlər birliyi dövründə mədəni əlaqələr bütün müttəfiq respublikalarla, xüsusilə Rusiya ilə sıx tellərlə bağlı idi. Keçid dövründə pozulmuş əlaqələr son illərdə bərpa olunmağa başlamışdır. Hazırda Rusiya Federasiyasının 70-dən çox respublika və vilayəti ilə, Gürcüstan, Ukrayna, Özbəkistan, Qazaxıstan, Moldova və başqa ölkələrlə əlaqələri getdikcə yaxşılaşır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya münasibətlərindən danışarkən demişdir: «Siyasi əlaqələrin səviyyəsi bu gün ölkəmizin qarşılıqlı mənafelərinə tam cavab verir. Rusiya ilə Azərbaycan arasında həll olunmamış heç bir problem yoxdur. Vaxtilə mövcud olan problemlərin hamısı artıq ortadan qaldırılmışdır».

2003-cü il sentyabrın 20-də Bakıda səfərdə olmuş Rusiya Federasiyası Prezidentinin xanımı, Rus dilinin Dəstəklənməsi Fondunun prezidenti Lyudmila Putina ölkəmizlə tanışlıqdan sonra demişdir: «Azərbaycanda rus dilinə, rus mədəniyyətinə bəslənən hörmətə və həssas münasibətə valeh oldum».

Azərbaycan və Rusiya ikitərəfli müqavilələrinə uyğun olaraq 2004-cü il iyulun 12-də Rusiya Federasiyası mədəniyyət işçilərinin nümayəndələri respublikamıza gəlmişlər. Həmin gün Bakıda Heydər Əliyev adına sarayda Azərbaycanda Rusiya Federasiyası mədəniyyəti günlərinin təntənəli açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sarayda Rusiyanın Mədəniyyət və Kütləvi Kommunikasiyalar naziri Aleksandr Sokolovu qəbul etmişdir. Dövlətimizin başçısı Rusiya Mədəniyyət xadimlərindən ibarət nümayəndə heyətinin Azərbaycana gəlməsini ölkənin həyatında əlamətdar hadisə adlandırmışdır. Prezident Rusiya dövlətinin zəngin mədəni ənənələrindən danışaraq qeyd etmişdir ki, Azərbaycanda rus mədəniyyətinə maraq həmişə yüksək olmuşdur. Ölkəmizdə Rusiyanın televiziya kanalları yayımlanır və onların vasitəsilə Azərbaycan sakinləri Rusiya mədəniyyətinin dəyərli irsi ilə tanış olurlar.

Rusiya nümayəndə heyətinin ölkəmizə səfəri və Azərbaycanda Rusiya mədəniyyəti günlərinin keçirilməsi ölkələrimizin arasında mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin inkişafına böyük təkan vermişdir.

Azərbaycanda Rusiya Federasiyasının mədəniyyət günləri çərçivəsində muzey mərkəzində Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğlunun Rusiya Federasiyasının mədəniyyət və kütləvi kommunikasiya naziri Aleksandr Sokolovla görüşü, sonra isə kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransı keçirilmiş, hər iki ölkə arasında əməkdaşlıq haqqında protokol və kitabxanaçılıq işində qarşılıqlı fəaliyyət haqqında saziş imzalanmışdır.

Əməkdaşlıq haqqında protokolda mədəniyyət günləri, festivallar keçirilməsi, bir-birinə musiqi kollektivləri göndərilməsi, dram teatrlarının və musiqili teatrların, bədii kollektivlərin və ayrı-ayrı ifaçıların qastrollarının təşkili nəzərdə tutulmuşdur. Tərəflər xalq yaradıcılığı evləri və özfəaliyyət kollektivləri arasında birbaşa əlaqələr yaradılmasına kömək göstərəcəklər. Muzey işi və sərgi fəaliyyəti sahəsində əməkdaşlıq,

ali və orta ixtisas mədəniyyət və incəsənət məktəbləri arasında birbaşa əlaqələr yaradılması, bir-birinə tələbələr göndərilməsi, Rusiya və Azərbaycan xalqlarının tarixi-mədəni irsinin öyrənilməsi, yaradıcılıq stajları, informasiya mübadiləsi, axtarış və qeydiyyata alınması da nəzərdə tutulmuşdur.

Hər iki ölkənin nazirlikləri öz səlahiyyətləri çərçivəsində mədəni dəyərlərin ölkəyə qanunsuz gətirilməsinin və ölkədən çıxarılmasının qarşısını almağa müvafiq dövlət orqanları ilə birlikdə nəzarət edəcəklər.

2000-ci ildə Azərbaycanla Rusiya Federasiyasının Sverdlovsk vilayəti arasında hökumətlərarası müqavilə imzalandıqdan sonra iqtisadi və mədəni əlaqələr xeyli genişlənmişdir. Sverdlovsk vilayətinin Azərbaycanda mədəniyyət günləri çərçivəsində (qeyd etmək lazımdır ki, bundan bir az əvvəl Yekaterinburqda da Azərbaycan mədəniyyəti günləri keçirilmişdir) oktyabr ayının 22-də Heydər Əliyev adına Sarayda Sverdlovsk vilayətinin incəsənət ustaları – Ural Dövlət Akademik Rus Xalq Xoru, «İzumrud» ansamblı, Sverdlovsk Dövlət Akademik Musiqili Komediya teatrının solistləri və rəqs qrupları geniş konsert proqramı ilə çıxış etmişlər.

Azərbaycan hökuməti ilə Sankt-Peterburq hökuməti arasında da ticarət-iqtisadi, elmi-texniki əlaqələrlə yanaşı, mədəni əməkdaşlıq haqqında saziş və danışıq protokolu imzalanmışdır. Həmin sazişə uyğun olaraq 2005-ci ildə Sankt-Peterburqda Azərbaycan mədəniyyəti günləri keçirilmişdir.

Rusiyada Azərbaycan ilinin ən yaddaqalan günlərindən biri də Azərbaycan xalq artisti, bəstəkar Polad Bülbüloğlunun «Dədə-Qorqud» dastanının motivləri əsasında hazırladığı «Eşq və ölüm, yaxud ölümlə rəqs edən məhəbbət» baletinin Sankt-Peterburqdakı Mariya teatrının səhnəsində böyük müvəffəqiyyətlə oynanılması olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü ilin fevral ayının 6-7-də Rusiya Federasiyasına rəsmi səfəri zamanı əldə olunmuş razılığa əsasən «2005-ci ildə Rusiya Federasiyasında Azərbaycan Respublikası ilinin və 2006-cı ildə Azərbaycan Respublikasında Rusiya Federasiyası ilinin keçirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2004-cü il tarixli sərəncamının bu sahədə böyük əhəmiyyəti olmuşdur.

Ümumiyyətlə, 2005-ci il Azərbaycan mədəniyyəti üçün uğurlu başlanğıc olmuşdur. 2005-ci il Rusiyada «Azərbaycan mədəniyyəti ili» elan edilmiş, bu münasibətlə Moskvanın Kreml Qurultaylar sarayında mədəniyyət tədbirlərinin təntənəli açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin həmin tədbirdə iştirak etmiş və çıxış etmişlər. Hər iki ölkə prezidentlərinin böyük önəm verdikləri bu mədəni hadisə bütün sənətsevərlərin ruh yüksəkliyinə səbəb olmuşdur. Həmin bir il ərzində Azərbaycanın mədəniyyət və incəsənət ustaları Moskvada və Rusiyanın ayrı-ayrı şəhərlərində xüsusi proqramlarla çıxış etmişlər.

Həmin ilin mart ayında dünya şöhrətli musiqiçi Mstislav Rostropoviç yenidən Bakıya gəlmiş və filarmoniyada Dövlət Simfonik Orkestrinin muşayiəti ilə konsert vermişdir.

Azərbaycan ilə Rusiya arasında ənənəvi dostluq, mehriban qonşuluq münasibətləri daim inkişaf edir və möhkəmlənir. Rusiya Federasiyasının prezidenti Vladimir Putinin 2006-cı il fevralın 21-də üçüncü dəfə

respublikamıza səfəri bunun əyani sübutudur. Hər iki ölkə başçısının görüşü zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanda Rusiya ilinin açılışının uğurla keçdiyini və təqdim olunan qala-konsertin də yüksək səviyyədə təşkil edildiyini, Rusiya ilinin bütün il boyu bu cür davam edəcəyinə ümidvar olduğunu bildirmiş, ölkələrimiz arasında dostluq, mehriban qonşuluq, səmərəli əməkdaşlıq münasibətlərinin bundan sonra daha da möhkəmlənəcəyinə əminliyini söyləmişdir.

Dövlət başçıları – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladıqları birgə bəyanatda da bu məsələlər öz əksini tapmışdır.

Fevralın 21-də Heydər Əliyev adına sarayda Azərbaycanda Rusiya ilinin təntənəli açılışına həsr olunmuş mərasimdə Rusiya Prezidenti Vladimir Putin demişdir: «Bu gün biz Azərbaycan Respublikasında Rusiyanın milli irsinə start veririk. O, Rusiyanın müasir, ən yeni nailiyyətlərinə, sadəcə baxış olmayıb, tarixən yaxın dövlətlərin və xalqların bərabərhüquqlu və qarşılıqlı surətdə faydalı əməkdaşlığına yeni təkan verməlidir. Elə xalqların ki, onlar əsrlər boyu münasibətlərində olan yaxşı varisliyi qayğı ilə qoruyub saxlayaraq, bu ənənələri nəsildən-nəsilə ötürmüşlər».

Rusiya ilinin açılışı mərasimində Rusiya Federasiyası incəsənət ustaları böyük konsertlə çıxış etmişlər. Bundan başqa həmin gün Rusiya milli sərgisinin də açılışı olmuşdur.

Fevralın 23-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində ikinci Azərbaycan-Rusiya iqtisadi forumu çərçivəsində «Azərbaycan və Rusiya xalqları arasında qarşılıqlı tarixi-mədəni və humanitar əlaqələr, turizm məsələləri» mövzusunda «dəyirmi masa» keçirilmişdir.

MDB-nin üzvü olan, yaxın qonşumuz Gürcüstan Respublikası ilə ikitərəfli iqtisadi, siyasi və mədəni əlaqələr də xeyli genişlənmiş, yeni forma və məzmun almışdır. Bu gün Gürcüstanda yaşayan 500 min-dən çox azərbaycanlının, Azərbaycanda yaşayan 200 min gürcünün dini azadlıqları, dili, adət-ənənələri, mədəniyyətləri qorunub saxlanılır, dövlət nəzarətində qanunla tənzimlənir.

Tbilisi şəhərində azərbaycanlıların mədəniyyət mərkəzi açılmış, böyük Azərbaycan mütəffəkkiri Nəriman Nərimanovun, Mirzə Fətəli Axundovun, Məmməd Səid Ordubadinin ev muzeyləri yaradılmış, Tbilisi-Azərbaycan teatrlarının fəaliyyəti bərpa edilmişdir.

Azərbaycanda isə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2004-cü ilin dekabr ayında gürcülərin kompakt yaşadıqları Qax rayonunun Əlibəyli kəndində Gürcü Dövlət Dram teatrı yaradılmışdır. Bundan başqa, Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti ilə Gürcüstan Dövlət Teleradio Korporasiyası arasında əməkdaşlıq haqqında saziş imzalanmışdır.

Azərbaycan və Gürcüstan dövlətləri arasında mədəni əlaqələr uğurla davam edir. Azərbaycan incəsənət xadimləri Gürcüstanda, həmçinin gürcü sənətkarları Azərbaycanda olur, müxtəlif konsertlər, tamaşalar, kinofestivallar, sərgilər təşkil edir, iki dost xalqın mədəni əlaqələri tarixinə yeni səhifələr əlavə edirlər. Tbilisidə Məhəmməd Füzulinin 500 illiyi, Bülbülün 100 illiyi, Azərbaycan Xalq Cümhuriyyəti yaranmasının 80 illiyi, Naxçıvan Muxtar Respublikasının 75 illiyi böyük təntənə ilə qeyd edilmişdir.

Azərbaycan–Gürcüstan münasibətlərinin hazırkı dinamik inkişafı,

bütün sahələrdə əlaqələrin genişlənməsi, ölkələrimizin beynəlxalq aləmdə eyni mövqedən çıxış etmələri, dövlət rəhbərləri arasında dostluq əlaqələri regionda sülhün, əmin – amanlığın, firavanlığın təmin olunmasına xidmət edir.

Azərbaycan Respublikası ilə Ukrayna və Belorusiya respublikaları arasında son illər başqa sahələrlə yanaşı, mədəni əlaqələr də inkişaf etmiş, bu sahədə bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan hökuməti ilə Belorusiya hökuməti arasında 2005-ci ildə Belorusiyada Azərbaycan mədəniyyəti günlərinin, 2006-cı ildə isə Azərbaycanda Belorus mədəniyyəti günləri keçirilməsi barədə razılaşma əldə olunmuşdur.

Azərbaycanda 32 mindən çox ukraynalı yaşayır və Ukrayna icması ölkəmizdə sayca dördüncü icmadır. Ukraynalılar Bakı və Sumqayıt şəhərlərində daha çox yaşayırlar. Azərbaycanda Taras Şevçenko adına Ukrayna icması və Lesya Ukrayinka adına Ukrayna Mədəniyyət Mərkəzi fəaliyyət göstərir.

Ukraynada isə 500 min nəfərə kimi azərbaycanlı yaşayır və Azərbaycan icması, mədəniyyət mərkəzi fəaliyyət göstərir. Kiyev şəhərinin görkəmli yerlərindən birində Heydər Əliyev parkında onun büstü qoyulmuş, paytaxtda Heydər Əliyev adına Sosial Elmlər İnstitutu açılmışdır.

Azərbaycan Respublikası ilə Mərkəzi Asiya ölkələri arasında mədəni əlaqələr yüksələn xətlə inkişaf edir.

2001-ci ilin aprel ayında Daşkənddə keçirilmiş Azərbaycan-Özbəkistan hökumətlərarası birgə iclasda başqa sahələrlə yanaşı, «2001-2006-cı illərdə Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında elm, mədəniyyət və incəsənət sahəsində proqram» imzalanmışdır. Özbəkistan Respublikasının prezidenti İslam Karimovun dediyi kimi, məhz Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanla Özbəkistan arasında ikitərəfli əlaqələr çox yüksək səviyyəyə çatmışdır. İstər siyasi, istərsə də mədəni sahədə əlaqələr yüksək səviyyədə olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü ilin mart ayında Özbəkistana səfəri zamanı Özbəkistanda Azərbaycan səfirliyinin yeni binasının, Azərbaycan Mədəniyyət Mərkəzinin, ümummilli liderimiz Heydər Əliyevin və görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin abidələrinin açılışı olmuşdur.

2004-cü ildə Qazaxıstanda imzalanmış «Azərbaycan hökuməti ilə Qazaxıstan hökuməti arasında mədəniyyət, elm və turizm sahəsində uzunmüddətli əməkdaşlıq haqqında» proqram mədəni əlaqələrin inkişafında mühüm rol oynamışdır.

Ümumiyyətlə, Azərbaycan dövləti Müstəqil Dövlətlər Birliyinə daxil olduğu zamandan keçən dövr ərzində milli-mədəni dəyərlərimizin daha da inkişaf etdirilməsi və habelə milli irsimizin təbliğ olunması sahəsində xeyli iş görülmüş və bu sahədə işlər uğurla davam etdirilir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan qəzeti, 24 dekabr 1991-ci il.
2. Azərbaycan qəzeti, 23 mart, 11 aprel 1995-ci il.
3. Azərbaycan qəzeti, 21 sentyabr 2003-cü il.
4. Azərbaycan qəzeti, 13 iyul 2004-cü il.
5. Azərbaycan qəzeti, 12 avqust 2004-cü il.
6. Azərbaycan qəzeti, 30 dekabr 2005-ci il.
7. Azərbaycan qəzeti, 15 yanvar 2006-cı il.
8. Azərbaycan qəzeti, 21,22,24 fevral 2006-cı il.

9. Heydər Əliyev – Müstəqilliyimiz əbədidir. Birinci кitab (iyun – 1993, may – 1994-cü illər).
10. Heydər Əliyev – Müstəqilliyimiz əbədidir. İкinci кitab (may – 1994-cü illər).
11. Heydər Əliyev və Gürcüstan, Baкı, Tbilisi, 2000-ci il.

## АЗЕРБАЙДЖАНСКАЯ КУЛЬТУРА И СОДРУЖЕСТВО НЕЗАВИСИМЫХ ГОСУДАРСТВ

**Г.Г.АЛИЕВ**

### РЕЗЮМЕ

В статье говорится о формировании культурных связей со странами содружества в 1993-2006 гг.

## AZERBAIJANIAN CULTURE AND COMMONWEALTH OF INDEPENDENT STATES

**Q.Q.ALIYEV**

### SUMMARY

The scientific article devoted to « Azerbaijanian Culture and Commonwealth of independent states» deals with the countries which entered to the CIS in the years of 1993-2006.